# NÜFUZLU ELMİ NƏŞRLƏRDƏ ƏSƏRLƏRİ ÇAP EDİLƏN UNEC ƏMƏKDAŞLARININ MÜKAFATLANDIRILMASI HAQQINDA

# Q A Y D A L A R

## Maddə 1. Ümumi müddəalar

Bu qaydaların məqsədi UNEC əməkdaşlarının nüfuzlu elmi nəşrlərdə əsərlər çap etdirmələrini stimullaşdırmaqdır.

Qaydalar "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi" əsasında hazırlanmışdır.

## Maddə 2. Qaydaların tətbiq dairəsi

Bu Qaydalar nəşr etdirdiyi əsərində işyeri kimi UNEC-i göstərən bütün UNEC əməkdaşlarına şamil olunur. Bu zaman əməkdaş UNEC-də tam ştat işləyirsə, əsərində də işyeri kimi UNEC-i birinci göstərməsi zəruridir.

## Maddə 3. Mükafatlandırma forması

"Clarivate Analytics" şirkətinin "Web of Science" platformasındakı A&HCI, SSCI və SCI-EXPANDED istinad indekslərinə daxil olan jurnallarda məqaləsi nəşr edilən UNEC əməkdaşları hər bir məqalə üçün aşağıdakı cədvələ uyğun olaraq birdəfəlik mükafatlandırılır:

| **"Web of Science" jurnal kateqoriyası** | **Mükafat** |
|---|---|
| Q1 | 4000 AZN |
| Q2 | 3000 AZN |
| Q3 | 2000 AZN |
| Q4 | 1000 AZN |

"Web of Science" platformasındakı "CPCI-S" və "CPCI-SSH" istinad indekslərinə daxil olan elmi konfransların elmi məruzə kitablarında tam mətn elmi məruzəsi nəşr edilmiş UNEC əməkdaşları isə hər elmi məruzə üçün ***500 AZN*** məbləğində birdəfəlik mükafatlandırılırlar.

"Elsevier" şirkətinin "SCOPUS" platformasına daxil olan elmi jurnallarda məqaləsi nəşr edilən UNEC əməkdaşları hər bir məqalə üçün aşağıdakı cədvələ uyğun olaraq birdəfəlik mükafatlandırılır:

| “Scopus”jurnal kateqoriyası | Mükafat |
|---|---|
| Q1 | 2000 AZN |
| Q2 | 1500 AZN |
| Q3 | 1000 AZN |
| Q4 | 500 AZN |

“SCOPUS” platformasına daxil olan elmi konfransların elmi məruzə kitablarında tam mətn elmi məruzəsi nəşr edilmiş UNEC əməkdaşları isə hər elmi məruzə üçün ***250 AZN*** məbləğində birdəfəlik mükafatlandırılırlar.

UNEC əməkdaşlarına yuxarıda nəzərdə tutulan mükafatlar, birmüəllifli əsərlərdə tam məbləğdə, çoxmüəllifli əsərlərdə isə tam məbləğin müəlliflərin sayına bölünməsi yolu ilə əldə edilən məbləğdə ödənilir.

**Maddə 4. Mükafatın verilməsinin qayda və prosedurları**

Bu Qaydalarda nəzərdə tutulan nüfuzlu elmi nəşrlərdə əsəri çap edilən UNEC əməkdaşı mükafat üçün ilk növbədə UNEC Rektoruna ərizə ilə müraciət edir. Əməkdaş ərizəsində əsərinin çap edildiyi nəşrin adını və təsir faktorunu, əsərinin adını və əgər varsa, həmmüəllifləri qeyd edir. Bu zaman ərizəyə aşağıdakı məlumatların əlavə edilməsi mütləqdir:

1. Nəşrin rəsmi saytından məqalənin çap edilməsini təsdiq edən müvafiq internet səhfəsinin linki və surəti;
2. Əsərin “Web of Science” vəya“SCOPUS” platformasında yerləşməsini təsdiq edən müvafiq internet səhfəsinin linki və surəti.

Rektor ərizəni, orada qeyd edilən məlumatların yoxlanılması məqsədilə UNEC-də fəaliyyət göstərən “Professor-müəllim Heyətinin Xidməti Fəaliyyətinin Qiymətləndirilməsi üzrə Daimi Komissiya”ya göndərir. Komissiya ərizədə qeyd edilən məlumatları yoxladıqdan sonar Rektora müvafiq qaydada təqdimat yazır. Rektor, bu təqdimata uyğun olaraq, əməkdaşın mükafatlandırıması haqqında müvafiq əmr imzalayır.

Əməkdaşın əsərinin çap edildiyi elmi nəşr həm “Web of Science”, həm də “SCOPUS” platformasına daxil olarsa, mükafatlandırma yalnız bunlardan birinə görə tətbiq edilir və bununla bağlı seçim hüququ əməkdaşa verilir. Əməkdaş bununla bağlı seçimini Rektora yazdığı ərizədə mütləq göstərməlidir.

**Maddə 5.Yekun müddəalar**

Qaydalar UNEC Elmi Şurasının müvafiq qərarı ilə təsdiq edildikdən sonar qüvvəyə minir.

Qaydalara dəyişiklik və əlavələr UNEC Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.

**NÜFUZLU ELMİ NƏŞRLƏRDƏ ƏSƏRLƏRİ ÇAP EDİLƏN UNEC ƏMƏKDAŞLARININ MÜKAFATLANDIRILMASI HAQQINDA QAYDALARA AŞAĞIDAKI DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏR EDİLMİŞDİR:**

1. **Elmi əsərlərdə iş yerinin göstərilməsi aşağıdakı kimi müəyyən edilmişdir: "***Bu Qaydalar nəşr etdirdiyi əsərində iş yeri kimi UNEC-i göstərən bütün UNEC əməkdaşlarına şamil olunur. Bu zaman əməkdaş UNEC-də tam ştat işləyirsə, əsərində də iş yeri kimi UNEC-i birinci göstərməsi zəruridir.*

2. **"Scopus" bazasındakı elmi məruzələrə görə də mükafatlandırma nəzərdə tutulmuşdur: "***"SCOPUS" platformasına daxil olan elmi konfransların elmi məruzə kitablarında tam mətn elmi məruzəsi nəşr edilmiş UNEC əməkdaşları isə hər elmi məruzə üçün* ***250 AZN*** *məbləğində birdəfəlik mükafatlandırılırlar*".

3. **Jurnalların kateqoriyalaşdırılmasında impakt faktor göstəriciləri "Q1,Q2,Q3,Q4"göstəriciləri ilə əvəz edilmişdir.**

4. **Qaydalar yenidən redaktə edilmiş və müvafiq dəqiqləşdirmələr aparılmışdır.**